


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 231 (23.873)

11 dekabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ulu öndər xalqımızı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanmışdır.* ***"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır"***, *– deyən ümummilli liderimizin həyatının mənası Azərbaycanı müstəqil və qüdrətli dövlətə çevirmək olmuşdur.*



# Əbədiyaşar LİDER

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***"Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına getgedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması, 1971-ci ildə Bakıda ilk hərbi təmayüllü məktəbin açılması, paytaxt və regionlarda təhsil, mədəniyyət və səhiyyə müəssisələrinin tikilməsi, SSRİ-nin ən nüfuzlu ali məktəblərinə azərbaycanlı gənclərin göndərilməsi xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətləri, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış uzaqgörən tədbirlər idi. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimizin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqəti çəkən ölkə rəhbəri cənab İlham Əliyev demişdir: ***"SSRİ dönəmində Azərbaycan iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

1982-ci ildə ümummilli liderimizin SSRİ-də rəhbər vəzifəyə irəli çəkilməsindən sonra Azərbaycanın hərtərəfli inkişafı ilə yanaşı, xalqımızın dünya arenasında tanıdılması və təbliği istiqamətində görülən işlərin miqyası daha da genişləndirilmişdir. 1982-87-ci illərdə Heydər Əliyev şəxsiyyətinə görə keçmiş Sovetlər Birliyində Azərbaycanla hesablaşır, ölkəmizdəki inkişafın qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Azərbaycanın inkişafını dayandırmaq, parçalamaq üçün yeganə bir yol vardı – ölkəni Heydər Əliyev inkişaf xəttindən uzaqlaşdırmaq. Nəhayət, 1987-ci ildə bu məkrli plan həyata keçirildi, ümummilli liderimiz rəhbər vəzifədən istefa verdi. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Ölkəmizin suverenliyinə edilən qəsd tarixi torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələndi, Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Lakin yenə də ulu öndər siyasi təqiblərə baxmayaraq, Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını ittiham etmiş, xalqımızın başına gətirilən müsibəti bütün dünyaya çatdırmışdır.

Dahi lider 1990-cı il iyulun 20-də Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ümummilli lider 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin Sədrliyi ilə Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı.

31 Dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması, sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, nizami ordu hissələrinin təşkili, diyarımızın tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqət mərkəzinə çəkilməsi, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, aqrar islahatların, özəlləşdirmənin uğurla aparılması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına kəskin ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, hava limanının yenidən qurulması, mədəni mühitin dirçəldilməsi, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm addımların atılması və sadalanan yüzlərlə belə böyük tədbirlər məhz bu qısa müddətdə Naxçıvanda yüksək səviyyədə gerçəkləşdirilmişdi. Azərbaycan dövlətçiliyinin dünəni, bu günü və gələcəyi olan Yeni Azərbaycan Partiyasının yaradılması, az vaxt ərzində böyük nüfuz qazanması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir. Həmin dövrdə ölkəmiz isə bunun əksinə hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana "rəhbərlik edənlər" ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi.

1993-cü il iyunun 15-də xalqın tələbi ilə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Ulu öndər Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".***

Ulu öndər Heydər Əliyev deyirdi ki, ***"Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur".*** Dahi rəhbərimizin çox qısa müddətdə uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi, siyasi inkişafına, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac vermişdir. Ulu öndərimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizi uğurdan-uğura aparmışdır. Bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin hər biri dövlətçiliyin fundamental əsaslarını müəyyənləşdirən tarixi hadisələrdir.

Tarix də göstərdi ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol düzgün yoldur. Belə ki, Azərbaycanın demokratik quruculuq və inkişaf yolu milli xüsusiyyətlər və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başlandı, ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və digər uğurlar ulu öndərin dövlətçilik konsepsiyasının mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir dünya dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu.

Beləliklə, Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdırdı.

Ulu öndərin siyasi hakimiyyətə qayıdışı ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. 1993-cü ildən sonra ölkəmizdə aparılan dövlət quruculuğu prosesi hərtərəfli inkişaf edən, müasir, demokratik ölkəyə çevrilən qüdrətli Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur.

Ümummilli lider Heydər Əliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən dövrdə Azərbaycan böyük inkişaf yolu keçmiş, ölkəmiz sürətli tərəqqi yoluna qədəm qoymuşdur. İqtisadi, siyasi və hərbi sahədə güclü potensial yaradılmışdır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq müdafiə təhlükəsizliyi ilbəil möhkəmləndirilir, hərbi hissələrin maddi-texniki təminatı gücləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Görülən işlər ötən il işğal altında qalan torpaqlarımızın azad olunmasına imkan verdi. ***"Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, müstəqil Azərbaycan dövləti öz ərazisinin bütün hissələrinin sahibi olacaqdır"***, – deyən ulu öndərin uzaqgörənliyinin heç bir sübuta ehtiyacı olmadığı bir daha təsdiq edildi.

Ötən il Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda yeni reallıqlar yaratmışdır. Bu reallıqda Azərbaycan təbii olaraq güclü, diktə edən tərəf kimi artıq yeni tarix yazmağa başlayıb. Bütün bunlar isə onu göstərir ki, ulu öndər Heydər Əliyev siyasi yolunun davam etdirilməsi təkcə Azərbaycanın deyil, bütövlükdə, dünya sivilizasiyasının tərəqqisinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir. Bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlər ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir".***

*Ulu öndərimiz Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman doğulub böyüdüyü torpağı, xalqı, milləti üçün əbədi olaraq qalacaqdır. Ulu öndər Heydər Əliyev hər zaman zirvədə dayandı, bu gün də zirvədədir, gələcəkdə də zirvədə olacaqdır!*

**"Şərq qapısı"**

# Ümummilli liderin anım gününə həsr olunmuş tədbirlər keçirilib



Azərbaycanın ümummilli lideri, xalqımızın xilaskar oğlu Heydər Əliyevin əziz xatirəsi Türkiyənin Qars şəhərində ehtiramla yad edilib.

Anım mərasiminin iştirakçıları əvvəlcə Qarsdakı Heydər Əliyev Parkına gələrək ulu öndərin burada ucalan abidəsi önünə tər çiçəklər düzüblər.

Qars Mədəniyyət Mərkəzində keçirilən anım mərasimi bir dəqiqəlik sükut, Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Ümummilli lider Heydər Əliyevin zəngin və mənalı ömür yoluna aid film nümayiş olunub.

Ərzurum Atatürk Universitetinin tələbəsi Fidan Novruzzadə ulu öndər Heydər Əliyevin bioqrafiyası barədə müfəssəl məlumat verib.

Sonra Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev, Qars valisi Türkər Öksüz, Qars Qafqaz Universitetinin dosenti Elnur Həsən Mikailin çıxışları olub.

Çıxışlarda ümummilli lider Heydər Əliyevin, təxminən, yarım əsri əhatə edən siyasi fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə toxunulub. Diqqətə çatdırılıb ki, bütün siyasi fəaliyyətini Azərbaycanın inkişafına və tərəqqisinə həsr edən ulu öndər böyük bir xilaskarlıq missiyası ilə Azərbaycanın dövlət müstəqilliyini təmin edib. Bu uzaqgörən strategiya Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirib, hər iki ölkənin kompleks inkişafına və qüdrətlənməsinə əhəmiyyətli təsir göstərib.

Qars vilayətinin baş prokuroru Sonər Aygün, Qafqaz Universitetinin prorektoru Engin Kılıç, Qars Polis rəisi Yavuz Sağdıç, Ədalət və İnkişaf Partiyasının Qars vilayət təşkilatının sədri Adəm Çalkın, Ərzurum Atatürk və Qars Qafqaz universitetlərinin müəllim və tələbə heyətləri, yerli ictimaiyyətin nüfuzlu təmsilçiləri, eləcə də ətraf vilayətlərdən tanınmış şəxslər mərasimdə iştirak ediblər.

**AZƏRTAC**

***AMEA Naxçıvan Bölməsi və muxtar respublikanın ali təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə “Əbədiyaşar lider” mövzusunda elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin həyatı və yorulmaz fəaliyyəti haqqında qısa məlumat verib. Bildirib ki, Heydər Əliyev parlaq zəkası, üstün idarəçilik qabiliyyəti, uzaqgörənlik və bir çox mühüm liderlik məziyyətləri ilə dünya siyasət tarixində seçilən dövlət xadimidir. Azərbaycana rəhbərliyinin hər iki dövrü, eləcə də fəaliyyətinin Moskva dövrü uzaqgörən müdrik siyasəti ilə əlamətdardır.

Qeyd edilib ki, dünya azərbaycanlılarının vahid ideologiya ətrafında birləşdirilməsi, Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması, milli-mənəvi dəyərlərin qorunması istiqamətində atılan uzaqgörən addımlar dahi rəhbərin reallaşdırdığı tarixi xidmətlərin bir hissəsidir. Tarixən Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımı və deportasiya siyasətinə ilk hüquqi qiymətin verilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, dahi şəxsiyyətin siyasi kursu onun siyasi davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın qədəm qoyduğu inkişaf erası, 44 günlük Vətən müharibəsi nəticəsində hərb və siyasət meydanında qazanılan uğurlar həmin amalın müvəffəq davamıdır.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli konfransda “Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir” mövzusunda məruzə edib.

Ulu öndərin fəaliyyətinin bütün dövrləri haqqında ətraflı məlumat verən məruzəçi bildirib ki, daim müstəqil Azərbaycan arzusu ilə yaşayan dahi rəhbər hələ sovet hakimiyyəti dönəmində həyata keçirdiyi işlərlə



bu ali məqsədə xidmət etmişdir. O, ötən əsrin 90-cı illərində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını almaqla xalqımızı böyük bir bəladan xilas etdi. Ölkədə ictimai-siyasi sabitliyi bərpa etdikdən sonra müstəqil dövlət quruculuğuna başladı. Müstəqil Azərbaycan dövləti konsepsiyasını işləyib hazırladı və onu uğurla həyata keçirdi. 1994-cü ilin mayında atəşkəs haqqında müqavilənin imzalanması sayəsində yaradılan sabitlik xarici investorların cəlb olunmasına şərait yaratdı. İlk iqtisadi uğurunu qazanan Azərbaycan qısa müddətdə Cənubi Qafqazda iqtisadi cəhətdən ən güclü dövlətə çevrildi.

Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev “Ulu öndər Heydər Əliyev və Azərbaycan tarixi məsələləri” məruzəsində söyləyib ki, II Qarabağ müharibəsində qazanılan qələbə Azərbaycanın hərbi-siyasi qüdrəti ilə yanaşı, vətənpərvər oğulların döyüş meydanında göstərdikləri şücaətinin bəhrəsidir. Bu isə ulu öndərin hələ sovet dönəmindən həyata keçirdiyi milliləşmə siyasətinin, gələcək müstəqil Azərbaycan naminə məqsədyönlü fəaliyyətinin, Azərbaycan gəncliyinin tariximizə, soykökümüzə bağlılığının müvəffəq nəticəsidir.

Ümummilli lider tərəfindən elmə, elm adamlarına göstərilən diqqət və qayğıdan söz açan alim vurğulayıb ki, dövlətçilik tariximizin dərindən öyrənilməsi, tarixi abidələrin tədqiqi və təbliği dahi şəxsiyyət Heydər Əliyevin elm adamları qarşısında qoyduğu mühüm vəzifələrdəndir. Biz bu gün həmin məqsədyönlü fəaliyyətin uğurlu nəticələrinin canlı şahidiyik.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov konfransda “Ümummilli lider Heydər Əliyevin təhsil siyasəti”, “Naxçıvan” Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva isə “Ulu öndər Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” mövzusunda məruzə ediblər.

Çıxışlarda ulu öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə təhsil sahəsində əldə olunan nailiyyətlər, aparılan islahatlarla bağlı, Azərbaycan ədəbiyyatına, zəngin söz xəzinəmizə, ədəbiyyat nümayəndələrinə göstərdiyi diqqət və qayğı, onların yaradıcılığının dünyada təbliği məqsədilə həyata keçirilən işlər haqqında məlumat verilib. Məruzəçilər çıxışlarında dahi şəxsiyyət Heydər Əliyev amallarının bu gün də uğurla davam etdirildiyini diqqətə çatdıraraq yüksələn inkişaf strategiyasının vəd etdiyi gələcək uğurlardan söz açıblar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *



*Dekabrın 10-da muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında “Ürəklərdə yaşayan dahi” mövzusunda interaktiv dərs keçilib.*

Ümummilli lider Heydər Əliyev irsinin gənc nəslə öyrədilməsi məqsədilə keçilən interaktiv dərsdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və həmin il may ayının 10-dan fəaliyyətə başlayıb. Ümummilli liderin sağlığında yaradılan muzeydə ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb.

Vurğulanıb ki, müdrik rəhbər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Ulu öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Bu böyük insanın həyat yolu hər bir məktəbliyə, hər bir gəncə nümunədir.

Dahi rəhbərin Vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib. Heyrətamiz idarəçilik istedadına, mətin iradəyə və böyük əzmkarlığa malik ulu öndərimiz Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi tənəzzül burulğanından çıxararaq respublikamızı qısa vaxt ərzində qabaqcıl və nüfuzlu ölkə səviyyəsinə yüksəldə bilib. Müstəqil dövlətçilik yolunda ilk addımları məhz Naxçıvanda atan ümummilli liderin təşəbbüsü ilə üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentində qaldırılıb, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılıb, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılıb.

Qeyd olunub ki, ulu öndərin 1993-cü ilin iyununda siyasi hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımızın ən qiymətli mənəvi-ideoloji sərvətinə çevrilib. Bugünkü güclü, qüdrətli Azərbaycanı O, öz əlləri ilə qurub-yaradıb, inkişaf etdirib, bütün dünyaya tanıdıb. Ulu öndər ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlayıb və reallaşdırılmasını təmin edib. Ona görə də xalqımız ümummilli lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. ***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub”***, – deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib.



*Ordubad rayonu, Dırnıs kənd tam orta məktəbi*



*Babək rayonu, Araz kənd ümumi orta məktəbi*

İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Əhalinin sosial rifah halı yaxşılaşdırılır

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu ötən ay ərzində əmək pensiyalarının düzgün təyinatı və ödənişinin aparılması, eləcə də fərdi uçot sistemi sahəsində bir sıra işlər görmüşdür. Əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılmış, pensiyaların ödənilməsi üçün 15 milyon 77 min manat vəsait pensiyaçıların plastik bankomat kart hesablarına köçürülmüş və ya yerlərdə poçt bölmələri vasitəsilə pensiyaçılara çatdırılmışdır. Məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan şəxslərin də şəxsi hesablarına və ya poçt ünvanına müavinət ödənilməsi üçün 257 min manat vəsait köçürülmüşdür.***

Hesabat dövründə müvafiq orqan tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanması üzrə fondun xəzinə hesabına 9 milyon 282 min 200 manat vəsait daxil olmuşdur ki, bu da proqnoz üzrə nəzərdə tutulmuş vəsaitdən 312 min 200 manat və ya 3,5 faiz çoxdur. Ümumilikdə, pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 60,5 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində yığılmışdır. Müvafiq dövr ərzində 4 hüquqi və 194 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınmışdır. Bu onu göstərir ki, muxtar respublikada yeni iş yerlərinin yaradılması və iqtisadi sahədə dayanıqlı inkişafın təmin olunması nəticəsində fondun büdcəsinə daxilolmaların əhəmiyyətli hissəsi ödənilən məcburi dövlət sosial sığorta haqlarının üzərinə düşür.

Ötən ay “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa əsasən fond tərəfindən 87 nəfərə yaşa, 16 nəfərə sağlamlıq imkanları məhdudluğa, 35 nəfərə ailə başçısını itirməyə görə, ümumilikdə, 138 nəfərə əmək pensiyası təyin edilmişdir. Pensiya təyin olunan vətəndaşlardan 110-na qanunvericiliyə əsasən ilk dəfə təyinat olmuş, 28-nin isə pensiya növündə dəyişiklik edilmişdir. Pensiya təyin olunmuş vətəndaşların 97-si kişi, 41-i isə qadındır. Bundan başqa, “Dövlət sosial sığorta sistemində fərdi-uçot haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq 307 yeni əmək fəaliyyətinə başlayan sığortaolunana fərdi şəxsi hesab açılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bundan sonra da pensiyaçıların sosial rifahının və həyat səviyyəsinin yüksəldilməsi üçün müvafiq tədbirlərin icrası sahəsində öz üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Yapon investisiya şirkətinin təmsilçiləri Naxçıvanda

Dekabrın 10-da Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvü olan yapon investisiya şirkəti TET International Development MMC-nin prezidenti Taro Savada, vitse-prezidenti Namiq Ələsgərov, ASK vitse-prezidenti Vüqar Zeynalov və ASK prezident məsləhətçisi Şəbnəm Nuriyeva Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tütün yetişdirmə mərkəzi, “Cahan Tabak” Beynəlxalq MMC, Naxçıvan Sənaye Kompleksində, “Ləzzət Biskvit və Şokolad Fabriki”ndə sahibkarlarla görüş keçirib, istehsal prosesi ilə ətraflı tanış olublar.




Qeyd edək ki, dekabrın 11-də Naxçıvan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində muxtar respublikada qida istehsal edən şirkətlər üçün 2022-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək “FoodExpo” sərgisi barəsində məlumatlandırma sessiyası keçiriləcək.

**Xəbərlər şöbəsi**

## Kardiologiyada yeniliklərə dair elmi-praktik konfrans



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında kardiologiyada yeniliklərə həsr olunmuş elmi-praktik konfrans keçirilib.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov konfransı açaraq ümummilli lider Heydər Əliyevin Azərbaycan səhiyyəsinin inkişafındakı misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, ulu öndərin səhiyyə sisteminin inkişafı istiqamətində müəyyənləşdirdiyi vəzifələr bu gün muxtar respublikamızda da uğurla yerinə yetirilir. Səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması muxtar respublikada dinamik xarakter alan genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilmişdir. Əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən mühüm islahatlar öz bəhrəsini verməkdədir. Son illərdə muxtar respublikada yüzlərlə səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir.

Bildirilib ki, hazırda ürək-damar xəstəlikləri dünyada ölümün və sağlamlığa imkanları məhdudluğun əsas səbəblərindən biri sayılır və bu xəstəlik üzündən hər il 17 milyondan çox insan dünyasını dəyişir. Odur ki, kardiologiyanın bir elm kimi inkişafı müasir dövrümüzdə mühüm əhəmiyyət kəsb edir. Bu gün artıq Naxçıvanda da mütəmadi olaraq uğurlu açıq ürək əməliyyatları həyata keçirilir. Naxçıvan Diaqnostika Müalicə Mərkəzində və kardioloji mərkəzdə müasir angioqrafiya aparatları ilə aparılan müayinə və müalicələrdə, açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması proseslərində Naxçıvan Dövlət Universitetinin məzunları olan gənc kadrların fəal iştirakı deməyə imkan verir ki, artıq kardiologiya Naxçıvanda da bir elm kimi inkişaf edir. Elmi-praktik konfransın keçirilməsində də məqsəd bu sahədə çalışan kardioloqların elmi biliklərini artırmaq, praktik vərdişlərini daha da yüksəltmək, bu xəstəliklərin diaqnostikası, profilaktikasında müasir yanaşmalara nail olmaq, yüksək texnologiyalar və innovasiyaların tətbiqi ilə bağlı nailiyyətləri təbliğ etmək və təcrübə mübadiləsi aparmaqdan ibarətdir.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxışında vurğulayıb ki, ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri sayəsində ölkəmizdə bütün sahələrdə olduğu kimi, elm, təhsil və səhiyyə sektorunda da mühüm inkişaf, nailiyyətlər əldə edilib. Səhiyyənin vacib istiqamətlərindən sayılan kardiologiya və ürək-damar cərrahiyyəsi sahələrində də məhz ümummilli liderin diqqət və qayğısı sayəsində uğurlara nail olunub.

Qeyd olunub ki, hazırda keçirilən tədbirlər çərçivəsində kadr təminatının təkmilləşdirilməsi də vacib məsələ kimi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi ilə muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulmuşdur. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 400-dən artıq tələbə təhsil alır ki, onların arasında xarici ölkə vətəndaşları da vardır. Universitetin Tibb fakültəsinin nəzdində açılan, 2021-2022-ci tədris ili üçün tələbə qəbulu aparılan Hərbi tibb ixtisası muxtar respublikada ali təhsilli tibbi kadr hazırlığı istiqamətində atılan mühüm addımdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə əlaqədar imzaladığı tarixi sərəncamlara uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində son illər Naxçıvan səhiyyəsində müxtəlif ixtisaslar üzrə yüksəkixtisaslı gənc həkimlərin sayı xeyli artıb. Muxtar respublikanın səhiyyə müəssisələrinin əksəriyyətinə gənc kadrların rəhbərlik etməsi onlara göstərilən inam və etimadın göstəricisidir.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Zəbur Bağırov ixtisasların profillərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının müvafiq xəstəxanalarından baza xəstəxanası kimi istifadə edildiyini bildirib. Qeyd edib ki, tələbələrin kliniki dərslərinin əksəriyyətinin xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçməsi üçün lazımi şərait yaradılmışdır. Eyni zamanda Respublika Xəstəxanasının kompüter otaqlarında əməliyyatları auditoriyalarda canlı izləmək üçün müvafiq qurğular qurulmuşdur.

Sonra "Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəz" publik hüquqi şəxsin baş həkimi Ramin Hacıyev, "Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi" publik hüquqi şəxsin həkim kardioloqu Arif Cavadov, kardioloji mərkəzin həkim kardioloqu, Naxçıvan Dövlət Universitetinin rezidentura təhsil səviyyəsinin Kardiologiya ixtisası üzrə 2021-ci il məzunu Sara Əzizli, kardioloji mərkəzin həkim kardioloqu, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin kardiologiya üzrə həkim rezidenti Tamam Seyidova, kardioloji mərkəzin həkim kardioloqu, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin hematologiya üzrə həkim rezidenti Səbunə Səfərova kardiologiya sahəsindəki aktual elmi problemlər və yeniliklərlə bağlı məruzələr ediblər.

Tədbirdə interaktiv diskussiyalar aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ali təhsil ocağı Avropa təlimlərində təmsil olunur

Naxçıvan Dövlət Universitetinin tərəfdaş olduğu LMQS layihəsinin növbəti təlimi Erasmus+ KA2 proqramı çərçivəsində həyata keçirilir. "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarəolunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistr hazırlığı" layihəsi çərçivəsində təlimlər layihənin koordinatoru olan Qərbi Attika Universitetinin təşkilatçılığı ilə Yunanıstanın Afina şəhərində keçirilir. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova, Roman-german dilləri kafedrasının baş müəllimi Əzizə Əliyeva təlimlərdə iştirak edirlər.



Səfər çərçivəsində Azərbaycanda səhiyyə xidmətlərində keyfiyyətin idarəolunması ixtisaslaşması üzrə yeni peşə bakalavrı və peşə magistr proqramının yaradılması ilə bağlı Avropa təcrübəsi öyrənilir. Eyni zamanda bu sahədə müasir təcrübənin ölkəmizdə tətbiqi üçün Avropa məkanında səhiyyə xidmətinin keyfiyyətinə nəzarət, onun qiymətləndirilməsi, sertifikatlaşdırılması və səmərəliliyinin müəyyən edilməsi metodlarının öyrənilməsi, Tuninq metodologiyası və onun tədris prosesində tətbiqi istiqamətində müzakirələr aparılır.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvanda sözü təkcə dəyişən zaman demir, həm də çiçəklənən məkanlar deyir



***Müdriklərin sözüdür: insanın dəyəri onun əməyindədir. Zəhmət insanı şəxsiyyətə, ölkələri isə qüdrətli dövlətə çevirir. Bu gün Naxçıvan Qurucu Rəhbər əməyi və zəhməti ilə ucadan ucalara ucalır, daha parlaq gələcəyə inamla addımlayır. İndi Naxçıvanda sözü təkcə dəyişən zaman demir, həm də çiçəklənən məkanlar deyir. Bu çiçəklənən ünvanlar sırasına Ordubad rayonunun Dırnıs və Anaqut kəndləri də daxil oldu. Artıq bu iki kəndin məktəbliləri ən müasir təhsil ocağında oxuyur, kənd sakinləri rahat yollarla istədikləri ünvana tez bir zamanda çata bilirlər. Çoxdandır gözlədikləri, bir neçə vacib strukturu özündə birləşdirən kənd mərkəzi artıq onların ixtiyarında olmasının sevincini yaşayırlar…***

Xüsusilə qeyd etməliyəm ki, bu sevinci təkcə kənd sakinləri yaşamır. Kənddə yaradılan şərait bütün muxtar respublika sakinlərini sevindirdi. Hər il bu kəndlərə gələn turistlərin sayı artmaqdadır. Yüzlərlə turist şəhərlərin səsli-küylü həyatından uzaq olan təbiətin qoynunda dincəlmək üçün üz tutduğu ünvanlar sırasında bu kəndlər və bu kəndlərdən keçərək bir qədər də uzaqlardakı yaşayış məntəqələri də var. Qeyd edək ki, gözəlliyi ilə turistləri cəlb edən Pəzməri şəlaləsinə gedən yol yenidən qurulduqdan sonra bu say daha da artacaq. Bu gözəlliyi görmək istəyən Dırnıs və Anaqut kəndlərindən də keçəcək. Heç şübhə yoxdur ki, kəndlərin abadlaşması, infrastrukturun yaradılması kənd turizminin inkişafına geniş yol açacaq. 2021-ci il iyulun 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Vələver, Dırnıs və Kələki kəndlərində həyata keçirilən quruculuq tədbirləri ilə tanış olarkən demişdir ki, belə uzaq yaşayış məntəqələrində quruculuq işləri ona görə aparılır ki, insanlar rahat və firavan yaşasınlar. Həyata keçirilən tədbirlər məskunlaşmanı da artıracaqdır. Artıq Pəzməri turistik bölgəyə çevrilir. Kəndə turist axını sakinlərin min bir zəhmətlə istehsal etdikləri məhsulların satılması və nəticə etibarilə, onların güzəranının daha da yaxşılaşması ilə nəticələnəcəkdir.

Vurğulamalıyam ki, Şərur və Naxçıvan şəhərindən sonra Ordubadın Dırnıs kəndi mənim üçün doğma məkana çevrilib. Ayda 4-5 dəfə getdiyim bu kəndin hər qarışını, insanlarını yaxşı tanıyıram. Burada aparılan abadlıq-quruculuq işlərinin sevincini kənd sakinləri ilə birgə yaşadım. 87 yaşlı Adil babanın sevincini isə sizinlə paylaşıram: – Biz yaşlı nəsil 3 müharibə görmüşük. İkinci Dünya müharibəsi uşaqlıq illərimə təsadüf edir, həmin dövrdəki çətinliklər deməklə bitməz, bəlkə də. O zaman təhsilə, elmə vaxt yox idi, bir məqsəd var idi, yaşamaq, acından ölməmək... Birinci Qarabağ müharibəsi dövründə isə məqsədimiz o idi ki, düşməni məhv edək, tapdaq altında olan torpaqlarımızı geri alaq. O gün gəldi ki, biz sürətli inkişafa qədəm qoyduq. Təhsil, elm, hərbi, bütün sahələrdə... Azərbaycanın inkişafı ilə Naxçıvan da inkişaf edib çiçəkləndi. Ordumuzun rəşadəti, inkişafın nəticəsi olaraq biz İkinci Qarabağ müharibəsindən qalib dövlət kimi ayrıldıq. Bu gün Qarabağdan tutmuş ta Naxçıvana kimi hər yerdə abadlıq işləri aparılır. Son günlərdə kəndimizdə istifadəyə verilən yeni binalar da bu inkişafın nəticəsidir. Mən çox sevinirəm, övladlarımın gəncliyi çətin dövrə təsadüf etsə də, nəvələrim inkişaf dövründə təhsil alır, sağlam böyüyürlər. Hər bir kənd sakini yaradılan şəraitdən qayğı ilə səmərəli istifadə edir. Ali Məclis Sədrinin diqqət və qayğısı bütün kəndlərimizdə görünür. Nəvələrimə, yetişən gənc nəslə hər zaman deyirəm ki, yaradılanları qoruyun və ondan faydalı istifadə edin. Mənim nəvəmin biri Dırnıs kənd tam orta məktəbinin yetirməsi Adil Möhsünov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alır. Onlar hər zaman vətənpərvər, dövlətə sədaqət ruhunda tərbiyə olunurlar. Mən Naxçıvanın çətin günlərini görmüşəm. Bu işıqlı günlərini gördükcə sevinirəm.

Naxçıvan Dövlət Universitetinin magistrantı Təbrizə Bağırova Dırnıs kənd tam orta məktəbinin məzunudur. Onun da ürək sözləri var: – Dünya dəyişir, inkişaf edir. Naxçıvanda bu inkişafı bütün yönləri ilə görmək mümkündür. Sakini olduğum Dırnıs kəndində bir neçə gün əvvəl yeni binaların istifadəyə verilməsi bunun əyani nümunəsidir. Kənd əhalisi üçün böyük əhəmiyyəti olan ağıllı kənd layihəsindən, düşünürəm ki, hər bir kəs qədərincə yararlanacaq. Müasirtipli məktəbdə təhsil alsam da, məktəbi 6 ildir, bitirsəm də, səmimi deyirəm, yeni məktəb binasını görəndə bir daha məktəbli olmaq istədim. Dırnıs kənd tam orta məktəbi məzunları ilə, sözün yaxşı mənasında, hər zaman seçilib. Fikrimcə, bundan sonra daha çox seçiləcək. Hər zaman təhsilə, elmə, səhiyyəyə böyük diqqət ayıran cənab Sədr illər əvvəl – mən səkkizinci sinifdə oxuyarkən təhsildə göstərdiyim uğurlara görə məni də mükafatlandırmışdı. Bu qayğını biz hər yerdə hiss edirik. Bu gün mən yenidən məktəbli olub Dırnıs kənd tam orta məktəbində təhsil ala bilmərəm. Amma mən Ali Məclis Sədrinin Sərəncamına əsasən ölkədə bir ilk olan Texnologiyalar Parkının yaradıldığı Naxçıvan Dövlət Universitetində təhsil alıram, Tələbə Elmi Cəmiyyətinin sədri kimi fəaliyyət göstərirəm. Muxtar respublika rəhbərinin diqqəti və qayğısı sayəsində biz "kaş ki, heyif" demirik. Və hər birimiz çalışırıq ki, ulu öndər irsinə, Ali Məclis Sədrinin diqqət və qayğısına layiq olaq və bunu qoruyub gələcək nəsillərə çatdıraq.





Ordubad rayonunun Dırnıs kəndində istifadəyə verilən sosial obyektlərə görə kənd sakinlərinin minnətdarlıq hisslərini bir qəzet məqaləsinə sığdırmaq mümkün deyil. Sosial şəbəkələrdə bununla bağlı çoxsaylı minnətdarlıq dolu fikirlər yer aldı, Dırnıs kəndinin yeni görüntüləri yüzlərlə sosial istifadəçi tərəfindən paylaşıldı. Bunlardan birini – həmkarım Sahil Tahirlinin fikirlərini də sizinlə paylaşmaq istəyirəm: – 1992-1993-cü illərdə bizim bir-iki dəftərimiz vardı, kitabımız isə, demək olar ki, yox idi. Bütün dərsləri müəllim danışırdı, biz də dəftərə yazırdıq. Qış aylarında isə məktəbdən söhbət gedə bilməzdi. Bir ayaqqabını gündüz növbəsi bir qardaş, axşam növbəsi digəri geyinirdi. Oyuncağımız da sim təkərlər və günəbaxan çubuqlarından düzəltdiyimiz "at"lar idi... Evlərdə işıq, qaz olmadığından günorta yeməkləri, adətən, qatıq, pendir, soyutma kartof idi. Bu günün məktəblilərini görəndə həsəd aparmamaq olmur. Onlar indi 5-ci sinifdə robotexnika ilə işləyirlər. Özü də dünyanın o başında – Dırnıs kəndində. Var olun, cənab Sədr!!!

*...2019-cu ildə Ordubad rayonunun Dırnıs kəndində istifadəyə verilən "Allahşükür məscidi" öz əzəməti ilə də diqqəti çəkir. Bir tərəfdə müasir məktəb binası, bir tərəfdə möhtəşəmliyi gözoxşayan məscid. Deyirlər ki, əgər elm dindən ayrıdırsa, uçurum, din elmdən ayrıdırsa, xurafatdır. Dırnıs kəndi Naxçıvanda elmlə dinin vəhdət təşkil etməsinin bir nümunəsidir. Bu möhtəşəm məsciddən yayılan azan səsi yurd yerlərimizə xeyir-bərəkət, birlik və rifah bəxş edir. Qoy bu azan səsləri heç zaman kəsilməsin. Qoy bu azan səsilə edilən dualar Qurucu Rəhbərimizin əməyini, zəhmətini, nəfəsini Naxçıvanımızın üzərindən əskik etməsin...*

**Sara ƏZİMOVA**
***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü***



## Yüzillik mətbuat arxivimizdən bu günə

# Qədim mədəniyyət mərkəzi

***Mədəni inkişaf cəmiyyətin, eləcə də hər bir fərdin özünüinkişafının əsas məqsədlərindən biridir. Böyük ədib Hüseyn Cavidin sözləri ilə desək, məhz dünyanı xilas edəcək olan mədəniyyətlə ən sonda intibaha qovuşmağı, hər kəsin bir-birini insan olduğuna görə sevib, hörmət etməyi xəyal etmək olar. Bu xəyalların gerçəkləşməsi üçün isə hər bir insanın təhsilli, kamil vətəndaş olması şərti dünya sivilizasiyalarının inkişaf tarixində qalın cizgilərlə aydın yazılıb. Çünki ən böyük mədəniyyət təhsil mədəniyyətidir.***

Böyüyən gənc nəsli yüksək təhsilli görmək hər bir kəsin arzusudur. Bu, övladını məktəbə göndərən valideynin istəyi və uşaqlara dərs deyən müəllimin tələbkarlığı ilə bütünləşdikcə ən böyük ülvi arzuya çevrilir, vətənpərvər, cəmiyyətdə hər kəsə faydalı olan kadrların yetişməsinə və öz layiqli yerini tutmasına səbəb olur. Qədim mədəniyyət mərkəzi olan, yetişdirdiyi böyük tarixi şəxsiyyətlər və liderləri ilə xalqımızın tarixinə öz izini qoymuş Naxçıvanda min il əvvəl olduğu kimi, bu gün də təhsil quruculuğu bu ciddiyyətlə qorunub saxlanılmaqda, bütün vacib işlərdən daha öndə gəlməkdədir. Çünki indi hamı görür ki, Vətənin torpaq bütövlüyü qədər ən vacib vəzifəni də bu sahənin ağıllı, savadlı və vətənpərvər kadrları cəmi 44 gündə həll edib, son nidanı qoya bilərlər.


Гәдим мәдәнијјәт мәркәзи

Qədim Naxçıvanın təhsil ənənələri çox keçmişə dayanır. Hələ İslam mədəniyyətinin inkişaf etdiyi erkən orta əsrlərdən bəri bu torpaqda yetişmiş alim və mütəfəkkirlərin düşüncələri, onlardan miras qalmış əsərlər bəşəriyyətin sonrakı inkişaf dövrlərinə işıq tutmuş, qaranlıq yolları aydınlatmışdır. Hətta bu gün təhsil modelləri ilə dünyaya standartlar gətirməyə çalışan Avropanın orta əsrlərdəki zülmət dövründə məhz Şərqdən qidalandığını hər kəs bilir. Yüksək təhsil ənənələri ilə əxlaq, riyaziyyat, tibb, tarix, fəlsəfə, məntiq, astronomiya, pedaqogika, memarlıq və digər mühüm sahələrdə görkəmli əsərlər yaratmış naxçıvanlılar ədəbi düşüncə sahibləri kimi də dünya elm və mədəniyyət tarixinə öz adlarını yazmışlar. Son yüz ildə insanların maariflənməsinə və cəmiyyətin mədəni tərəqqisinə öz töhfəsini vermiş "Şərq qapısı" qəzetinin 1969-cu il 10 iyul tarixli sayındakı XII-XIII əsr mənbələrinə əsasən qələmə alınmış "Qədim mədəniyyət mərkəzi" başlıqlı yazıda da belə müsbət ənənələrinin formalaşıb yayıldığı 700 il əvvəlki qədim Naxçıvanın təhsil mühitindən söz açılır.

Azərbaycan SSR Elmlər Akademiyasının əməkdaşı Əli Hüseynzadənin imzası ilə dərc olunmuş bu məqalədə həmin dövrdə Türkiyə arxivlərinin birində tapılmış, Azərbaycanda uzun müddət hakmiyyətdə qalmış Elxanilər dövlətinin 1263-1284-cü illərdə baş vəziri olmuş Şəmsəddin Məhəmməd Cüveyninin "Naxçıvan mədrəsələrində tədris üsuluna dair" fərmanından söhbət açılır. Məqalədə qədim mədəniyyət mərkəzi olan Naxçıvanda hələ yüzilliklər öncə insanların təhsilə olan marağından bəhs olunmaqla həmin dövrdəki mühit haqqında oxucuda təsəvvür yaradılır.

Həmin fərmana, həmçinin məqalədə adı keçən XII əsrin sonu və XIII əsrin əvvələrində yaranan "Əcaib-üd-dünya" adlı coğrafiya kitabına əsasən ozamankı Naxçıvan şəhərinin quruluşu, insanların sosial həyatı barədə məlumat verən müəllif Möminə xatın türbəsində fəaliyyət göstərən mədrəsə təhsilindən, burada yaradılmış auradan söhbət açır. Qeyd olunur ki, mədrəsədə dərs deyən müəllimlər yaxşı oxuyan şagirdlərinə öz ruhani oğlu kimi yanaşıb gözəl rəftar etməli, dərsləri maraqlı edib keyfiyyətə üstünlük verməli, hər tələbənin fərdi xüsusiyyətini nəzərə alıb ona müvafiq tapşırıqlar verməli, dərs zamanı gərəksiz mübahisələrə yol vermədən hafizənin inkişafı üçün mövzu ətrafında müzakirələr aparmalı, həftədə azı bir dəfə indiki ifadə ilə "seminar" kimi tanınan belə müzakirələr aparmalıdırlar.

Dövrümüzdə təhsil işçiləri, eləcə də tələbə və şagirdlərin gündəmində qiymətləndirmə əsas mövzulardan biridir. Ancaq məqaləni oxuduqda görürük ki, bu gün Avropa təhsil standartlarında imtahanlardan qabaq ayda bir dəfə keçirilən kollokvium və summativ qiymətləndirmə kimi aylıq bilik yoxlanışları elə 700 il əvvəl də Naxçıvan mədrəsələrində olub, müəllim və şagirdlər bunlara böyük həyəcanla hazırlaşıblar.

Tarixi sənədlərə istinadən "Şərq qapısı" qəzetində dərc olunmuş bu məqalə həmin dövrlərdə mədrəsələrdə təhsil alanların üzərinə böyük məsuliyyət düşdüyündən bəhs etməklə də diqqəti cəlb edir. Belə ki, o zamanlar mədrəsə tələbələrinə müəllimlərin adını uca tutub, xüsusi ehtiram göstərmələri, tənbəl və səhlənkar olmamaları, dərslərini təkrar edərək dərindən mənimsəmələri də tövsiyə olunur. Bu bölümdə diqqətçəkən daha bir maraqlı məqam isə mədrəsə şagirdlərinin başa düşmədikləri məsələlər barədə müəllimə sual verməkdən çəkinməmələri və yalnız keçilmiş dərsi tam öyrəndikdən sonra növbəti mövzuya keçmələri haqqında fikirlərdir. Bir sözlə, Naxçıvanda əsrlər öncə mövcud olan mükəmməl pedaqoji görüşlərlə tanış olursan!

O dövrlərdən artıq xeyli zaman keçib, insanların həyat standartları və texnologiya tamamən dəyişilib. Ancaq İslam mədəniyyətinin çiçəkləndiyi həmin dövrdəki kimi, indi də özünün iqtisadi-mədəni intibah dövrünü yaşayan qədim Naxçıvan hər sahədə olduğu kimi, təhsildəki nəticələri ilə də öz sözünü deməkdədir. O zamanlar Naxçıvandakı təhsil məkanları Möminə xatın türbəsi kimi şəhərin ən gözəl, ən yaraşıqlı binaları seçildiyi kimi, indi də Naxçıvan məktəbləri özünün müasirliyi və gözqamaşdıran gözəlliyi ilə, sözün əsl mənasında, başqalarına nümunədir. Bu gün Naxçıvandakı təhsil müəssisələrində oxumaqla uğur qazanan minlərlə şagird və tələbə kimi öz həyatının mənasını on minlərlə gəncin irfan qazanmasında görən müəllimlər də dövlətin ali məqsədlərinə xidmət etməklə özlərini xoşbəxt sayırlar.

*Bu, qədim mədəniyyət mərkəzi Naxçıvanın minillik təhsil ənənəsidir.*

**Əli CABBAROV**

# Naxçıvanın gənc şahmatçısı FIDE ustası adını alıb




Bu uğura muxtar respublikanın istedadlı və perspektivli şahmatçılarından biri olan Nəsrin Babayeva nail olub. Beynəlxalq reytinq göstəricilərinə əsasən 2100 xallıq həddi keçməklə (2110) normativi yerinə yetirən 16 yaşlı şahmatçımızın titulu Beynəlxalq Şahmat Federasiyası (FIDE) tərəfindən təsdiqlənib. Qurumun prezidenti Arkadi Dvorkoviçin imzaladığı sənədə əsasən Nəsrin Babayeva qadınlar arasında FIDE ustası adına layiq görülüb.

Bununla da Naxçıvan Şahmat Federasiyasının idmançıları arasında sözügedən normanı yerinə yetirənlərin hazırkı sayı 4-ə yüksəlib. Siyahıda Nəsrinlə yanaşı, Pərviz Qasımov, Aynur Kətanova və Sadiq Məmmədov kimi güclü şahmatçılarımızın da adları var. Ümumilikdə isə muxtar respublika şahmatçıları arasında beynəlxalq hakim, FIDE hakimi, qrossmeyster, 2 beynəlxalq usta və 4 FIDE ustası var.

Məlumat üçün bildirək ki, 15 oktyabr 2005-ci ildə Naxçıvan şəhərində dünyaya gələn Nəsrin 6 yaşında şahmat məktəbinə daxil olub. Hazırda Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə təhsil alır. Şəxsi məşqçisi atası – beynəlxalq usta Talıb Babayevdir. Azərbaycan çempionatının seçmə yarışlarının, eləcə də beynəlxalq miqyaslı turnirlərin qalibi və mükafatçısıdır. Bu il Naxçıvanda keçirilən Azərbaycan çempionatındakı uğurlu çıxışı ilə diqqətləri üzərinə çəkən istedadlı idmançımız Serbiyada keçirilən "Silver Leyk" turnirində birinci olub və karyerasında ilk dəfə olaraq qadınlar arasında Avropa çempionatında iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən ənənəvi olaraq hər il keçirilən "Hüquqlar hamı üçün!" jurnalist yazıları müsabiqəsində 2021-ci il üçün aktual mövzu kimi elan olunan "Postmüharibə dövründə insan hüquqları" mövzusunda təqdim etdiyi məqaləyə görə Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi İlahə Allahverdiyeva fərqləndirmə mükafatına layiq görülüb, diplomla təltif edilib. Həmin məqalə Türkiyə və Özbəkistan mətbuatında da dərc olunub.***

***"Şərq qapısı" ilə də müntəzəm əməkdaşlıq edən gənc tələbə jurnalistin məqaləsini oxucularımıza təqdim edirik.***

## Estafet

# Postmüharibə dövründə insan hüquqları




Dünyanın əşrəfi sayılan insan hür yaşamaq, xoşbəxt yaşamaq üçün yaradılıb. Lakin dünyada baş verən müharibələr, qırğınlar, talanlar yaradılmışların ən alisi olan insanın bir çox hüquqlarını pozur. Məhz bu səbəbdən də İkinci Dünya müharibəsində törədilən vəhşiliklərə cavab olaraq 1948-ci ildə insanların hüquqlarını beynəlxalq səviyyədə qorumaq üçün Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildi.

30 maddədən ibarət olan Bəyannamədə bütün insanlar qanun qarşısında bərabərliyi və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malik olmaları, heç kimsənin işgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmaması, eyni zamanda hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olması, hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, anadangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan bütün hüquqlara və azadlıqlara malik olmaları haqqında müddəalar yer almaqdadır. Lakin çox təəssüf ki, beynəlxalq hüquq çərçivəsində insan hüquqlarının müdafiəsi barəsində qanunlar olsa da, insan hüquqları pozulmağa davam edir.

XX əsrdə Azərbaycanda elan olunmamış I Qarabağ müharibəsində 20 min azərbaycanlının yaşamaq hüququ əlindən alınaraq öldürüldü, 5 min nəfərin sağlamlıq hüququ pozuldu, 100 min nəfər yaralandı. Mülkiyyət hüququ və mənzil toxunulmazlıq hüququ pozularaq öz yurd-yuvasından didərgin düşmüş qaçqın və köçkünlərin sayı isə milyonu keçdi. Ağır işgəncələrə, insanların şərəf və ləyaqətini alçaldan qeyri-insani davranışlara, ağıla belə, gələ bilməyəcək zülmlərə, təhqirlərə məruz qalanlar arasında isə yaşlılar və qadınlar olmaqla, körpə uşaqlar da var idi. Bütün bunlar dünyanın gözü qarşısında baş vermişdi.

Hər il 10 dekabr dünyada Ümumdünya İnsan Hüquqları Günü kimi qeyd olunduğu halda, bizlər Qarabağda hüquqları amansızlıqla pozulan soydaşlarımızı yad edərək əzab çəkirdik. Düz 30 il səbirlə bu vəhşiliyə hüquqi qiymət verilməsini gözlədik. Nəhayət, tariximizə "azadlıq payızı" kimi həkk olan 2020-ci ilin sentyabrında müzəffər Azərbaycan Ordusu xalqımızın pozulmuş hüquqlarını müdafiə etmək üçün silaha sarıldı. İşğal altında olan torpaqlarımız azad edilərək öz ata-baba yurdundan qovulan soydaşlarımızın mülkiyyət və mənzil hüquqları bərpa edildi. Dövlətimiz tərəfindən işğaldan azad olunan torpaqlarda aparılan quruculuq işləri nəticəsində artıq bu torpaqların əsl sahibləri öz doğma elinə qayıdacaq. II Qarabağ müharibəsində Vətəninin pozulmuş hüquqlarını müdafiyəyə qalxanlar arasında minlərlə igidimizi də itirdik. Onlar başqalarını yaşatmaq üçün şəhidlik zirvəsinə ucaldılar. Dövlətimiz canlarını bu torpağa qurban verən şəhidlərin ailələrini və sağlamlığını itirən qazilərimizi daim diqqətdə saxlayır. Bu kateqoriyaya aid olan insanlara müəyyən imtiyazların verilməsi və qayğı ilə əhatə olunması üçün ölkə başçısı tərəfindən bir sıra fərman və sərəncamlar imzalanıb. Müharibədə psixoloji cəhətdən travma alan insanların sağlamlığı da diqqətdə saxlanılaraq dövlət tərəfindən tibbi müalicə ilə yanaşı, psixoloji, psixoterapevtik müdaxilə edilir.

Tolerant bir ölkə kimi dünyada tanınan Azərbaycan dövləti öz xalqının pozulmuş hüquqlarının bərpası üçün müharibə yolunu seçsə də, müharibə vaxtı düşməndən fərqli olaraq heç bir qeyri-insani davranışlara yol vermədi. Lakin düşmən "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il Cenevrə konvensiyalarında təsbit olunmuş, münaqişə tərəflərinin hərbi əməliyyatlar zamanı legitim və qeyri-legitim hədəfləri fərqləndirməsini və heç bir halda mülki şəxsləri və obyektləri hədəfə almamasını nəzərdə tutan "fərqləndirmə prinsipini" (principle of distinction) kobud şəkildə pozaraq, Azərbaycana məxsus mülki obyektləri və şəxsləri qadağan olunmuş silahlardan istifadə edərək dəfələrlə hədəfə aldı. Hətta müharibə bitdikdən sonra da düşmən qanunları pozmaq adətindən əl çəkmədi. Ermənistan tərəfinin mina yerləri ilə bağlı məlumatı Azərbaycana verməkdən imtina etməsi də beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulmasıdır. 10 noyabr 2020-ci il tarixdə Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Ermənistan və Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoyulduğunu elan edən üçtərəfli Bəyanat imzalandığı vaxtdan bu günədək işğaldan azad olunmuş ərazilərimizdə mina partlaması nəticəsində aralarında 14 nəfəri mülki şəxs olmaqla, 20 nəfər Azərbaycan vətəndaşı həlak olub, 85 vətəndaşımız, o cümlədən 16-sı mülki şəxs olmaqla, ağır yaralanıb. Minaların yerləşdirilməsi və minalı ərazilərin xəritəsini təqdim etməmək etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının öz torpaqlarına qayıtmasına maneə olaraq regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqdır. Bütün əngəlləri aşan Azərbaycan bu maneəni də zərərsizləşdirərək yaxın gələcəkdə təhlükəsizliyi təmin edəcək. Hər zaman insan hüquqlarına sayğı ilə yanaşan Azərbaycanda bundan sonra daim firavanlıq hökm sürəcək.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

### İtmişdir

Məmmədov Rəşad M.Hüseyn oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1035